

Həsən OCAQQULİYEV

# AŞIQ ƏLƏSGƏR

**Əsası Miskin Abdal tərəfindən qoyulan Göyçə aşıq məktəbi Ağ Aşıq, Aşıq Alı, Aşıq Musa, Məmmədhüseyn, Usta Abdulla, Növrəs İman və digər görkəmli simalar yetirmişdir. Bu mühitin ən azman sənətkarı Aşıq Ələsgərdir.**

105 il ömür sürən Aşıq Ələsgər 1926-cı ildə vəfat etmiş və doğma kəndi Ağkilsə kəndində dəfn edilmişdir. Onun atası Alməmməd kişi kəndin sayılan-seçilən, hörmətli adamlarından biri olmuşdur. Dahi söz ustadı Aşıq Ələsgərin anası Pərzad nənə Zərkənddən Şahzadəlilər tayfasının layiqli nümayəndəsi Molla Əhməd Abbas oğlunun bacısıdır. Molla Əhmədin qardaşı Aşıq Ələsgərin dayıları Kalvayı Bayram, Kalvayı Abbas çox dindar şəxslər olublar, kənddə çox hörmət edilən və sayılıb-seçilən adamlar olublar.

Aşıq Ələsgər hələ uşaq çağlarında əməyə qatlaşmış və ailəsinə köməklik etmək üçün 13-14 yaşına çatanda əmək fəaliyyətilə atasını sevindirmişdir.

Hələ körpə yaşlarından aşıq sənətinə güclü meyl göstərən Ələsgərin oxu daşa dəymiş, sevgi acısını erkən dadmış və uğursuz eşqinə saysız-hesabsız ölməz əsərlər yaratmışdır.

"Köynəyinə", "İncimərəm", "Üzün bürümə", "Qanan ola", "Yanaş get", "Getmə amandı", "Öldürür", "Dönübdü" və s. kimi sənət əsərləri ilk eşqin tərcümanı kimi səslənir. Alməmməd kişi oğlunun gözəl şeirlər söylədiyini, saza, sözə olan böyük marağını, istəyini görüb onu Qızılvəngli Aşıq Alıya şəyird verir. Düz beş il aşıq Alıdan mükəmməl dərs alan Aşıq Ələsgər klassik aşıq poeziyasını dərindən mənimsəmiş, saz sənətinin bütün incəliklərinə yiyələnmişdir.

Aşıq Alının yetirmələri çox olsa da, Ələsgər hamısını kölgədə qoymuşdur. Qısa bir müddətdə aşıq poeziyasını əlçatmaz zirvəyə qaldırmışdır.

Aşıq Ələsgər dövrünün elmli, bilikli, qabaqcıl adamları ilə sıx əlaqə saxlamış, onların savadını yüksək qiymətləndirmişdir. Misal üçün, zəmanəsinin qabaqcıl ziyalısı, xüsusi təhsil görmüş Mirzə Bəylər haqqında Ələsgər çox fəxrlə söz açmışdır.

**Firəng, rusi, farsi, türkü, ərəbi,**
**Beş dilinən var savadı Bəylərin.**

- deyərək dostunu hər yerdə öymüşdür. Zəkalı, zəhmli, xüsusi yaddaşa malik qeyri-adi sənətkar aşıq yaradıcılığını zənginləşdirmək məqsədilə bütün qaynaqlara baş vurmuş, hər söz xəzinəsindən bir dürr seçmişdir.

XIX əsr Zaqafqaziyada, xüsusən də Azərbaycanda aşıq yaradıcılığının intibah, kamilləşmə dövrü sayılır.

Neçə-neçə ustad sənətkarlar yetirsə də, Göyçə aşıq mühitinin kamilləşmə dövrü məhz Aşıq Ələsgərin timsalında özünün ən yüksək mərhələsinə çatmışdır.

Aşıq Ələsgər hikmət dolu, dərin mənalı ustadnamələrində aşıqlıq elminin ədəb-ərkan məramnaməsini yaratmışdır. Sələflərinə şamil etdiyi kəlamlar özündən sonra gələn xələflərinə həmişəyaşar, aqil ustad tövsiyələri, öyüd-nəsihət dərsləridir.

**Aşıq olub tərki-vətən olanın,**
**Əzəl başdan pür kamalı gərəkdir.**
**Oturub-durmaqda ədəbin bilə,**
**Mərifət elmində dolu gərəkdi.**

Aşıq el anasıdır. Günü-güzəranı el arasında keçir. Odur ki, Aşıq Ələsgər aşıq sənətinə qədəm qoyan hər kəsdən təmiz ad-san, aşıqlıq adına xas olan ağır çəki, dərin nüfuz, "dalısınca xoş səda" tələb edir. Nəinki Göyçə, eləcə də bütün Şərq dünyasında aşıq poeziyasının günəşi sayılan Dədə Ələsgər təqlidolunmaz sənətkarlığı ilə özündən sonrakı nəsillərə ədəbi-bədii zəmin yaratmışdır. Ələsgər məktəbindən kamil dərs alan Aşıq Əsədlə Daşkəndli Nəcəfin səsi-sorağı qısa bir müddətdə bütün Zaqafqaziyanı bürüyüb İranda, Turanda, Osmanlı torpağında eşidilmişdir. Ələsgər yaradıcılığı, Ələsgər şəxsiyyəti daim mütəxəssislərin, tədqiqatçıların diqqətini çəkmiş və hal-hazırda da çəkməkdədir.



Böyük sənətkarın qoşma, təcnis, divani və müxəmməslərinin bir qismi rus dilində, Vladimir Qafarov və Konstantin Simonovun tərcüməsində ayrıca kitab şəklində (Aşıq Alesker, stixi, izdatelstvo "Elm", 1972) nəşr olunmuşdur.

Ələsgərin şeirləri bir neçə dəfə Türkiyədə nəşr edilmişdir. Qüdrətli sənətkara olan böyük sevgi və ehtiramın təzahürüdür ki, hələ əlaqələrin məhdudluğu şəraitində, qeyri-demokratik bir şəraitdə görkəmli türk folklorçuları Nizaməddin Ongun ("Göyçəli Aşıq Ələsgər". Aşıq Qasım evi. Atabazarı. 1964), Aslan Xavərin ("Aşıq Ələsgər". İstanbul 1984) tərtibatilə, az sonra isə. Nizaməddin Ongun və İslam Ələsgərzadənin birgə tərtibatı ilə ("Göyçəli Aşıq Ələsgər". Ankara 1987) kitabları nəfis şəkildə işıq üzü görmüşdür.

XIX əsrin aşıq lirikasının ən bənzərsiz nümunələrini yaradan Ələsgər yaradıcılığı istər üslub, istər dil, istərsə də mövzu baxımından rəngarəng, çoxşaxəli olduğu qədər də canlı, sadə, axıcı, musiqiyə yatandı. M.Hüseynin fikrincə desək: "Xalq dilinin ən gözəl xüsusiyyətlərini bilən, bu dili yüksək şeir səviyyəsinə qaldıran Ələsgər də müəyyən bir fikir ifadə etməyən süni misralara rast gəlmirik".

Ələsgər yaradıcılığında təbiət mövzusu başlıca yer tutur. Təbiət gözəlliklərinin təkrar olunmaz lövhələrini yaradan Ələsgərin hər misrası ("Tər çiçəklər iməyindi", "Nərgiz, çəmən göynəyimdi", Murğuz, Murov, Kəpəz xandı, Alvız, Ağrı bir sultandı və s.) ayrı-ayrılıqda bir rəssam tablosudu.

Dahi sənətkarın 150 illik yubileyi 1972-ci ildə ümumxalq məhəbbətilə olduqca geniş və təmtəraqlı, təntənəli şəkildə doğulduğu Ağkilsə kəndində keçirildi və qəbirüstü abidəsi qoyuldu.